# Şərif Ağayarın yeni hekayələr kitabı




Yazıçı Şərif Ağayarın hekayələr kitabı işıq üzü görüb.

"Qanun" Nəşrlər Evində çap olunan kitab "Arıların səssizliyi" adlanır.

Ş.Ağayar kitabla bağlı təəssüratını belə bölüşüb: "Nəsr yazmağa 2000-ci illərin əvvəlindən başlamışam. Yəni düz iyirmi ildir. 2011-ci ildən isə hekayələr kitabım çap olunmur. Ona görə, düşündüm ki, 20 ildən 20 hekayə seçim və 2020-ci ildə çap edim. Bu, rəqəmlərlə oyun deyil təbii ki, hekayələri toplamağa, təzədən redaktə etməyə, yarımçıqları bitirməyə bir numeroloji bəhanədir. Əvvəl-axır bu hekayələr kitab şəklində çıxmalı idi. Karantindən istifadə edib bu işləri gördüm. Dəstək üçün Qanun Nəşrlər Evinə, xüsusən Şahbaz Xuduoğluna təşəkkür edirəm!"

Kitabda "Şəkil", "Cəfər əmimin yolları", "Arıların səssizliyi" kimi tanış hekayələrlə yanaşı yeni nümunələr də yer alıb. Bundan əlavə, yazıçının ilk qələm təcrübələrindən olan "Kərpickəsən kişinin dastanı" və "Xürrəm" uzun hekayələri də yeni redaktədə təqdim olunub.

Kitabı "Əli və Nino" mağazalar şəbəkəsindən və "Qanun" Nəşrlər Evinin kitab mağazasından əldə edə bilərsiniz. Telefonla və onlayn sifariş də mümkündür.

Kaspi 2020.- 10 iyun.- S.7.